**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NƏRİMAN HƏSƏNZADƏ YARADICILIĞINDA TƏRBİYƏ MƏSƏLƏLƏRİ

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Ülviyyə Kamil qızı Bəşirli**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmişdissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** pedaqogika üzrə fəlsəfə doktoru, professor
**İramin Namaz oğlu İsayev**

Rəsmi opponentlər: pedaqogika elmləri doktoru, professor
**Şəhla Qasım qızı Əliyeva**

pedaqoji elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Aytəkin Telman qızı Məmmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki FD 2.15 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: tarix elmləri doktoru, professor
__________ **Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya Şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent
__________ **Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi
__________ **Fərrux Abbas oğlu Rüstəmov**

## Tədqiqatın ümumi səciyyəsi

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Tərbiyə məsələsi o qədər strateji və ümummilli bir problemdir ki, o bütün dövrlərdə və ictimai quruluşlarda həmişə cəmiyyətin simasını müəyyən etmişdir. Əxlaqi saflıq, mənəvi zənginlik, insana və onu əhatə edən maddi aləmə humanist münasibət olmadan bəşərin taleyinin necə olacağını təsəvvürə gətirmək çox çətindir. Tərbiyəşünaslıq kifayət qədər geniş bir kateqoriya olub insanın cəmiyyət üzvlərinə və geniş həyata münasibətlərinin formalaşmasını təmin edir.

İnsan dünyaya gələndən onun sağlamlığı qədər mənəvi tərbiyəsi də diqqət mərkəzində olur. Bu andan başlayaraq tərbiyə qanunları və prinsipləri tərbiyəçilər tərəfindən tərbiyə olunana tətbiq olunmağa başlayır. Körpə əvvəlcə ailə mühitində, sonra isə bağça və məktəb şəraitində tərbiyə işinə cəlb edilir və bu proses, demək olar ki, ömür boyu davam edir. Tərbiyə mühiti dəyişdikcə ona uyğun olaraq tərbiyə mənbəyi və vasitələri də dəyişir, ən optimal mənbə və vasitələrdən istifadə olunur. Tərbiyə işi çox geniş və çoxtərəfli bir proses olduğundan ona kompleks şəkildə yanaşmaq və bütün istiqamətləri əhatə edə bilmək zəruridir.

Tərbiyə işində onun mənbələrinin də xüsusi önəmi vardır. Bu mənbələrə hər şeydən əvvəl cəmiyyət həyatını və təbiəti aid etmək olar, lakin tərbiyə mənbələrini bunlarla məhdudlaşdırmaq olmaz. Mədəniyyət, incəsənət və ədəbiyyatın tərbiyə işində xüsusi rolu vardır.

İnsanın zövqünün və dünyagörüşünün formalaşmasında, özünü dərkində və özünü tərbiyəsində bədii ədəbiyyatın əhəmiyyəti əvəzsizdir. Ulu öndər Heydər Əliyevin bu barədə söylədiyi bir fikrə diqqət edək: "*Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur*".

Bədii ədəbiyyat əsasən yazıçı təxəyyülünün məhsulu kimi ərsəyə gəlsə də, burada həyat həqiqətləri, insanı düşündürən, duyğu və istəklərinə, insani keyfiyyətlərinin formalaşmasına stimul verən gerçəkliklər də kifayət qədərdir. Bir sözlə, bədii əsərlər insan

xarakterinin və tərbiyəsinin formalaşması üçün əvəzsiz mənbədir. Bu cür dəyərli bədii mənbələrdən biri də Azərbaycanın Xalq Şairi Nəriman Həsənzadənin yaradıcılığıdır.

N.Həsənzadə 70 ildən artıqdır ki, öz bədii əsərləri ilə Azərbaycan oxucusuna xidmət edir. Artıq bir neçə nəsil bu müdrik sənətkarın yaradıcılığından bəhrələnərək doğru istiqamətdə nəticə çıxarmış, mənəvi cəhətdən kamilləşmiş, tərbiyə olunmuşlar. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamında bir sıra görkəmli yazıçılarla bərabər N.Həsənzadənin də əsərlərinin bu əlifba ilə yenidən nəşri uyğun bilinmişdir. Bu sərəncama uyğun olaraq Xalq şairinin seçilmiş əsərləri 7 cilddə oxuculara təqdim olunmuşdur. Bu bir yandan dövlət başçımızın şairin yaradıcılığına böyük dəyər verməsidirsə, bir yandan da N.Həsənzadə yaradıcılığının həqiqi dəyərinin rəsmi təsdiqidir.

N.Həsənzadə yaradıcılığının təsir gücü bir tərəfdən onun bədii təsvir və ifadə vasitələrinin zənginliyindədirsə, başqa tərəfdən də həyatiliyində və elə buna görə də səfərbərediciliyindədir. Onun dərin məzmunlu əsərləri öz poetik səviyyəsi, mövzu aktuallığı ilə həmişə diqqəti çəkən olmuş, müəllif öz oxucusunu irəli sürdüyü ideyaların arxasınca aparmağı bacarmışdır. N.Həsənzadənin istər nəzm və nəsr, istərsə də dram əsərlərində, o cümlədən, elmi yaradıcılığında sərgilədiyi və həllinə çalışdığı problemlər milli olmaqla bərabər, həm də beynəlmiləldir, bəşəridir, insanidir, ibrətamizdir. Tərbiyəedicilik isə onun yaradıcılığının əsas qayəsi və məğzini təşkil edir. Görkəmli söz ustadının bu cür yüksək keyfiyyətləri özündə əks etdirən yaradıcılığını pedaqoji aspektdə təhlil süzgəcindən keçirmək, onun öz oxucusuna aşılamaq istədiyi mənəvi xüsusiyyətləri, idealları araşdırmaq tərbiyəşünaslıq elmi üçün çox gərəklidir.

Məlum olduğu kimi, heç bir bədii sənətkar hər hansı bir əsəri yaradarkən birbaşa oxucu qarşısına "bundan nəticə çıxart, öyrən, tərbiyələn, ananı, vətənini, dövlətini, millətini sev, düşmənə nifrət et, dostluğa sadiq, qürurlu, dəyanətli ol" və s. kimi tələblər qoymur. O, əsərini yaradır, təbiətdə və cəmiyyətdə görmək istə-

diklərini burada bədii şəkildə əks etdirir, nəticə çıxarmağı isə oxucu və ya tamaşıçının öhdəsinə buraxır. Çıxarılan nəticə və ya necə deyərlər "görk" isə əsərin bədii dəyərini müəyyən edən meyara çevrilir. Təbii olaraq oxucu, yaxud tamaşaçı tanış olduğu bədii əsərin təsir gücünə qapılaraq özünə bu cür suallar ünvanlamalı olur: mən bu əsərlə tanışlıqdan nə qazandım, nələri əxz etdim, bu əsər mənim ağlıma, dünyaya baxışıma, duyğularıma nə bəxş etdi? Bu əsərlə tanışlıq mənə hansı problemimin həllində yardımçı oldu? və s. Məsələyə bu cür yanaşdıqda görmək olur ki, N.Həsənzadənin yaradıcılığı başdan-başa bu cür postulatlar üzərində qurulmuşdur. Oxucu və ya tamaşaçının onun əsərlərindən öyrənə biləcəyi şeylər həddindən artıq çoxdur, başqa sözlə, N.Həsənzadənin yaradıcılığı, əslində bütöv bir tərbiyə məktəbidir. Öz möhkəm qayda və qanunları olan, yüksək təsir gücünə malik, insanın həyatda düzgün və fəal mövqe tutmasına xidmət edən tərbiyə kompleksidir. Orta və ali məktəblərdə N.Həsənzadənin yaradıcılığı ilə bağlı iştirakçısı olduğumuz görüş və söhbətlərdə, disputlarda biz bunun dəfələrlə şahidi olmuşuq. Bütün bu söylədiklərimiz N.Həsənzadənin yaradıcılığını pedaqoji əsaslarla araşdırmağı zəruri və aktual edir.

**Tədqiqatın obyektini** N.Həsənzadənin həm nəsr, nəzm və dramatik əsərlərində, həm də elmi-publisistik yaradıcılığında tərbiyə məsələlərinin pedaqoji istiqamətdə araşdırılması müəyyən edir.

**Tədqiqatın predmetini** N.Həsənzadənin bütöv yaradıcılığında tərbiyə məsələlərinin qoyuluşunun özünə məxsusluğu və bundan doğan nəticələrin ümumiləşdirilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri** N.Həsənzadənin əsərlərində tərbiyə məsələlərinin şərhi və bir müqtədir sənətkar kimi onun yaradıcılığında aşılanan dəyərlərin gənc nəslin tərbiyəsində rolunu və əhəmiyyətini nəzərə çatdırmaqdan ibarətdir. İnsan tərbiyəsində bədii əsərlərin rolunu konkret bir yazıçının yaradıcılığının timsalında təqdim etmək də ümumi məqsədlər sırasındadır. Məqsədə uyğun olaraq N.Həsənzadənin keçdiyi şərəfli həyat yolu diqqətə yetirilmiş, onun bir insan kimi şəxsi keyfiyyətləri nəzərə çatdırılmış, sələfləri və xələfləri ilə dialektik münasibətləri sərf-nəzər edilmiş, yaradıcılığını şərtləndirən əsas məziyyətlər, ümdə cəhətlər ön plana

çəkilərək təhlil edilmişdir. Bütün bunların fonunda müəyyənləşdirməyə çalışılmışdır ki;

- Müasir dövrdə tərbiyə probleminin mahiyyəti nələri özündə ehtiva edir;
- Problemin elmi-nəzəri əsasları elmi-pedaqoji ədəbiyyatda necə əks olunmuşdur;
- N.Həsənzadənin tərbiyə məsələlərinə münasibəti necədir?
- Onun insan tərbiyəsi ilə bağlı fikir və düşüncələrindəki sağ- lam ideylar nələrdən ibarətdir
- Oxucu onun əsərlərindən hansı üstün keyfiyyətləri özü üçün əxz edə bilər
- Gənc nəslin tərbiyəsində N.Həsənzadə yaradıcılığından necə istifadə etmək olar
- Yazıçıya görə insan tərbiyəsində hansı tərbiyə problemləri daha prioritet xarakterə malikdir və s.

**Tədqiqatın metodoloji əsasını** tərbiyə və onun komponentlərini özündə əks etdirən həyatı biliklərin bədii formada aşılanması və bu zaman yazıçı tərəfindən təbliğ edilən mənəvi-əxlaqi normaların metod və prinsipləri təşkil edir. Bu məqsədlə tanınmış pedaqoqların mövzu ilə bağlı əsərləri diqqət mərkəzində saxlanılmışdır.

**Tədqiqatın metodları.** Tədqiqat işində müşahidə və ümumiləşdirmə əsas metod kimi götürülsə də, yeri gəldikcə elmi-nəzəri təhlil, müsahibə, pedaqoji eksperiment, kimi metodlardan da istifadə edilmişdir. Dərsliklərdə və pedaqoji ədəbiyyatda insan tərbiyəsində bədii əsərlərin rolu barədə deyilənlər, bunun üçün həyata keçirilən üsul və metodlar da nəzərə alınmışdır. Bütün bunlarla yanaşı, tədqiqatda yeri gəldikcə filoloji aspekt də diqqətdən kənarda qalmamışdır.

**Müdafiəyə təqdim edilən müddəaları** aşağıdakı kimi ümumiləşdirmək olar:

- Nəriman Həsənzadənin bədii yaradıcılığına onun böyüyüb başa çatdığı ictimai-siyasi mühit çox böyük təsir göstərmişdir.
- Nəriman Həsənzadənin yaradıcılığında insanın düzgün tərbiyəsi üçün zəngin örnəklər vardır.
- Şairin mənzum dram və poemaları oxucusuna millilik vətənpərvərlik, humanizm kimi bəşəri ideyalar aşılayır.

- Nəriman Həsənzadənin şeir yaradıcılığı tərbiyə probleminin bir sıra aspektlərini özündə əks etdirir.

- Azərbaycan gənclərinin mənəvi-əxlaqi, milli və bəşəri ruhda tərbiyəsində N.Həsənzadənin yaradıcılığının böyük təsir gücü və əhəmiyyəti vardır.

**Tədqiqatın elmi yeniliyi**. N.Həsənzadənin yaradıcılığı ilk dəfə olaraq pedaqoji aspektdə, tərbiyə məsələləri müstəvisində nəzərdən keçirilmiş, insan tərbiyəsində bədii ədəbiyyatın rolu ilə bağlı fikir və mülahizələr konkret nümunələr əsasında diqqətə çatdırılmışdır. Sübut edilmişdir ki, müqtədir bir söz sənətkarı olan N.Həsənzadənin istər bədii, istərsə də elmi-publisistik yaradıcılığı bu işin həyata keçirilməsi üçün böyük imkanlara malikdir. Bundan səmərəli istifadə gənc nəslin düzgün tərbiyəsində əvəzsiz mənbə rolunu daşımağa qadirdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyada tərbiyə nəzəriyyəsində yazıçı, şair və alim sözünün yeri və əhəmiyyəti yeni müddəalarla, müstəqil yanaşmalarla daha da zənginləşdirilmiş, milli və ümummilli tərbiyənin qloballaşma şəraitində uzlaşdırılması zərurəti nəzəri əsaslarla təqdim edilmişdir. Atalarımız təsadüfi deməmişdir ki, "söz qılıncdan da itidir" Bəzən sözün gücü silahdan da üstün olur və ya dava-dərmanla sağalmayan yaranı sözlə sağaltmaq mümkün olur. Müharibə şəraitində yaşadığımız bir dövrdə bədii sözün qüdrətinə, onun təlqinedici və səfərbəredici gücünə cəmiyyətimizin başqa vaxtlardakından daha böyük ehtiyacı vardır. Tərbiyə prosesində bədii əsərlərdəki ideyalardan yararlanmaq, onun tətbiqi yollarını üzə çıxarmaq çox zəruridir. Bu baxımdan tədqiqatdan doğan nəticələrin mənimsənilməsi gənc nəslin tərbiyəsində kifayət qədər faydalı ola bilər. Yeni dərslik, dərs vəsaiti, proqram və metodik tövsiyələrin hazırlanmasında tədqiqatda irəli sürülən müddəalardan bəhrələnmək mümkündür. Tədqiqat işindən bakalavr, magistr və doktorant hazırlığında, özünütərbiyə metodlu işlərdə istifadə etmək olar.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Tədqiqatın nəticələri ilə bağlı bir sıra beynəlxalq və respublika əhəmiyyətli elmi konfranslarda məruzələrlə çıxışlar edilmişdir. Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda məqalələr və tezislər çap edil-

mişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi Pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya 8 paraqrafı əhatə edən 2 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Giriş – 9934 işarə, 6 səhifə, I fəsil 73788 işarə, 42 səhifə, II fəsil 156650 işarə, 94 səhifə, nəticə 5233 işarə, 3 səhifə, istifadə edilmiş ədəbiyyat siyahısı – 10 səhifə olmaqla dissertasiya işi ümumilikdə 245772 işarə, 157 səhifədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Tədqiqatın ümumi səciyyəsi" hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılmış, obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Tədqiqatın meto- doloji əsası, müdafiəyə çıxarılan müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti nəzərə çatdırılmışdır. Tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumilikdə həcmi haqqında məlumat təqdim edilmişdir.

Dissertasiyanın "Giriş" hissəsində N.Həsənzadənin yaradıcılığının genezisi bioqrafik və təlim-tərbiyə kontekstində" adı altında şairi yetişdirən mühit, yaradıcılığına təsir edən amillər, müasir Azərbaycan poeziyasında şairin tutduğu yer, mövzu dairəsi, ideoloji görüşləri və sair haqqında məlumat verilmişdir.

Dissertasiyanın "Nəriman Həsənzadənin həyatı və ədəbi pedaqoji fəaliyyətinin mühüm istiqamətləri" adlı birinci fəsli 3 paraqrafdan ibarətdir. "Nəriman Həsənzadənin yaradıcılığının genezisi bioqrafik və tərbiyə kontekstində" adlanan birinci paraqrafində bədii ədəbiyyatın insan əxlaqına və mənəviyyatına təsiri barədə yığcam məlumat verilmiş, daha sonra şairin keçdiyi ömür yoluna nəzər salınmışdır. Özünü bu vətənin əsgəri hesab edən, çox çətin, keşməkeşli, lakin şərəfli bir ömür yolu keçmiş N.Həsənzadə 1931-

ci ildə fevralın 18-də Azərbaycanın qərbində, Qazax rayonunun Poylu qəsəbəsində (indiki Agstafa) dünyaya göz açmışdır. Hələ kiçik yaşlarında ikən dəmiryol stansiyasında fəhlə işləyən atası Alməmməd kişini itirən Nəriman anası Nabat ananın min bir zəhməti ilə böyümüş, həyatın ağırlıqlarını erkən yaşlarından çiynində daşımalı olmuşdur. Bu çətin illərdə qəsəbə sakinləri, xüsusən anasının rəfiqələri sayəsində ayaqda qala bilən bu ailə öz güzəranlarını təmin etməklə yanaşı, lazım gələndə özlərindən ağır vəziyyətdə olan adamlara da əl tutmuşdur.

N.Həsənzadənin yeniyetməlik çağları II Dünya müharibəsi illərinə təsadüf etmişdir. Bu ağır illər, çətin həyat sınaqları balaca Nərimanın ruhunda və canında dərin izlər buraxmış, hələ gənc yaşlarından onun həyat kredosunun formalaşmasında həlledici təsirə malik olmuşdur. Uşaqkən gördükləri, duyduqları, iştirakçısı olduqları hadisələr, tanıdığı adamlar sonradan onun bədii yaradıcılığında xüsusən, "Nabat xalanın çörəyi" adlı avtobioqrafik povestində öz dolğun əksini tapmışdır ki, sonralar həyatı boyu bu təsirdən qurtara bilməmiş, əsərlərində dönə-dönə xatırlamışdır. "Poylu-beşiyim mənim" adlı" lirik-epik poemasında şair Poyluda keçən günlərini yada salaraq bu dövrü ömrünün ən gözəl çağları kimi vəsf edir:

*Bu dünyanın gözəl vaxtı Poyluda qaldı*
*Bir qız mənə süzgün baxdı – Poyluda qaldı.*
*Göy üzündən ulduz axdı –Poyluda qaldı,*
*Taleyimin dalısınca getdim Poyludan,*
*Beşiyimin görüşünə gəldim sonradan..!"* [59, c.2, s.688]

Poylu mühiti N.Həsənzadəyə nə vermişdi? Bir insan, gələcəyin böyük ziyalısı, şairi kimi o, bu mühitdən nə əxz edə bilmiçdi? Bu sualların cavabını tapmaq üçün uzağa getmək lazım gəlmir. N.Həsənzadə Poylunun təbiətini, insanlarını öz əsərlərində elə real boyalarla təsvir etmişdir ki, əsərlərini oxuyanda görmək olur ki, bu mühit gənc Nərimana çox şeylər vermişdir. Hər şeydən əvvəl dərin müşahidə qabiliyyəti, səmimilik, zəhmətsevərlik və insansevərlik, təvazökarlıq, qədirbilənlik, ünsiyyət bacarığı və s. Bütün bu keyfiyyətlər isə məcmu halında şairin dünyagörüşünü, həyata və insanlara baxışını formalaşdırmış, nəticə etibarilə vətəninə

və xalqına bütün varlığı ilə bağlı olan müdrik bir şairin, alimin yetişməsinə ilkin vəsilə olmuşdur.

N.Həsənzadənin həyatının II mərhələsi Gəncə mühiti ilə bağlıdır. Bu mühit Nərimana həyati bilik və bacarıqlar qazandırmış, ilk qələm təcrübəsini də məhz burada Gəncə Pedaqoji İnstitutunun "Dil-ədəbiyyat" fakültəsində təhsili zamanı qələmə almışdır. Gəncə mühiti, tələbəlik illəri onun gələcək həyatında müstəsna rol oynayan iki sevgi ilə də əlamətdardır; 1) kitab sevgisini ona dövrün qabaqcıl ziyalıları olan prof. Yavuz Axundov kimi müəllimlər qazandırdı və o, elmi-yaradıcılığı həyatının məqsədlərindən biri kimi qəbul edib daim elmi axtarışlarda oldu. 2) Ömür-gün sevdası, qadın sevgisi, həyatı və insanları sevməyi, yaşamağı, mübarizə aparmağı öyrədən, tez tapıb tez də itirdiyi həyat yoldaşı, ən yaxın sirdaşı Sara xanımı bu cəfakeş, ağıllı və gözəl qadınla ilk tanışlıqdan məftun olan, bütün varlığı ilə sevən Nəriman onun şəxsində anası Nabat anadan sonra ən mükəmməl qadın idealını tapmış oldu. Özünün dəfələrlə etiraf etdiyi, əsərlərində dönə-dönə vurğuladığı kimi Sara xanım onun həyatına yeni məna, yeni rəng qatdı, ən çətin anlarında şairə arxa-dayaq olub əyilməyə, sınmağa qoymadı, yaşamağına stimul, yaradıcılığına ilham verdi. Sağlığında və ölümündən sonra bu qadını N.Həsənzadənin sevgi şeirlərinin poetik qəhrəmanı kimi qəbul etmək olar. Əsərlərinin I cildində getmiş "Mən səni sevdim ki..." silsiləsindən olan ən uğurlu və yadda qalan, səmimiyyəti ilə oxucunu valeh edən şeirlərin bir çoxu məhz bu sevgiyə həsr edilmişdir. Şair bu illərdə yazdığı "Tələsmə" (1958), və "Gül bir az", Ömrümün yazısan (1955), "Yadına düşəcəyəm (1956), "Niyə getdin" (1960), "Bəxtəvər oldu" (1960), "Sənsən həyatım" (1960) və s. şeirləri lirik poeziyanın və əsl saf məhəbbətin ən gözəl bədii nümunələri kimi dəyərləndirilə bilər. Bu şeirlərdə təkcə gənc bir şair qəlbinin təlatümləri deyil, həm də sabahı düşünən, sevgidən qidalanan bir insanın sabaha, sabahkı ailəyə sağlam bir münasibəti də öz əksini tapmışdır: "*Dedim: Mən aşiqəm al yanağına, Dedi: bülbül qonar gül budağına. Dedim üzük taxım qoy barmağına, Əhdi-peyman kəşək, Dedi tələsmə ("Tələsmə").* Yaxud*: Qələm olsam,varağım ol, Susuz olsam, bulağım ol, Sən evim ol, otağım ol,Mən yanan çırağım olum"* [59, c.1, s.37]

N.Həsənzadənin həyatının bir mərhələsi də hərbi xidmət illəri ilə bağlıdır. Doğru olaraq, "kişilik məktəbi" adlandırılan əsgərlik illəri gənc Nərimanın həyat tərzində, dünyagörüşündə kifayət qədər müsbət rol oynamışdır. Burada onun komandiri olmuş azərbaycanlı mayorun söhbətləri, sanki, Nərimanın gözlərini yenidən açmış, onda vətənpərvərlik və millətsevərlik duyğularının real əsaslarla inkişafına təkan vermişdir. Şair özü etiraf edir ki, bu zabitin sayəsində o, siyasi cəhətdən daha da yetkinləşmiş, bu istiqamətdə yeni biliklərə və yanaşmalara sahib olmuşdur. "Nabat xalanın çörəyi" əsərində söylədiyi kimi, anası, orta məktəb müəllimi və bu zabit onun taleyini müəyyənləşdirən əsas simalar olmuşlar.

N.Həsənzadənin bir görkəmli şair, alim və ictimai xadim kimi yetişməsində təbii ki, Bakı mühiti həlledici bir mərhələdir. Hələ tələbəlik illərindən artıq istedadlı bir şair kimi özünü təsdiq edə bilən N.Həsənzadə 1954-cü ildən Azərbaycan Yazıçılar İttifaqının (Birliyinin) üzvü idi. Ona görə də, yazıçılar ittifaqı xətti ilə Moskvaya M.Qorki adına Ədəbiyyat İnstitutuna göndərilərək ikinci ali təhsil alır. Ali ədəbiyyat kurslarında da oxuyur. Burada böyük türk şairi N.Hikmətlə tanış olur. Sonradan bu tanışlıq yaxın dostluğa çevrilir. Qədirbilən şair N.Hikmətlə tanışlığını, onunla ünsiyyətini həmişə yüksək dəyərləndirir və yazırdı ki: "*Nazim Hikmət mənim üçün yeni bir universitet oldu. Mən Moskvada sanki ikinci bir ali məktəbdə oxuyurdum; bu Nazim Hikmət universiteti idi*" [59, c.5, s.304]

N.Həsənzadə Bakı mühitində maddi baxımdan əvvəllər xeyli çətin bir durumla üzləşir. Çap olunmuş əsərlərindən aldığı qonorarla birtəhər yaşayan şair ürəyində çoxdan gəzdirdiyi bir arzusunu ilk olaraq böyük ədib və görkəmli ədəbiyyatşünas alim Mir Cəlal Paşayeva etibar edir. Onun məsləhəti ilə 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin aspiranturasına sənəd verir və qəbul edilir. Universitetin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasının müdiri olan prof. M.C.Paşayev ona elmi rəhbər təyin edilir. "N.Həsənzadə ədəbi əlaqələrimiz" adlı məqaləsində bu hadisəni xatırlayaraq yazır: "*...Nəriman, Azərbaycan-Ukrayna ədəbi əlaqələri xam torpaqdır. Sənə belə bir dissertasiya mövzusu təklif edirəm, otur, izlə!"* [59, c.5, s.545].

Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri professor, mütəfəkkir yazıçı Mir Cəlal Paşayev məni bu sözlərlə qarşıladı və Azərbaycan Dövlət Universitetinin aspiranturasına qəbul olmağım münasibətilə təbrik etdi... *"Bir il səkkiz aydan sonra müdafiə kürsüsünə qalxdım. Elmi rəhbərim sevinirdi... Bir gün də dedi ki, səndə Avropa işgüzarlığı, Şərq istiqanlılığı var"* [59, c.5, s.545]

O dövrdə heç kimin etməyəcəyi bir alicənablıq və oğluna qismət olası mənzili də Nəriman Həsənzadəyə bağışlamaqla bu böyük şəxsiyyət onun mənəvi dünyasının sahibinə, mənəvi atasına çevrilmişdi. M.C.Paşayev bu böyük jestində tam səmimi və təmənnasız olsa da, N.Həsənzadə bütün ömrü boyu unutmadı. Hər zaman M.Cəlal Paşayevi hamıya örnək kimi tanıtmaqdan, onu "mənəvi atam" adlandırmaqdan usanmadı, yorulmadı. Bugünkü həyatı, uğur və şöhrəti, mövqeyi üçün özünü bu böyük şəxsiyyətə borcluhesab etdi və etməkdədir.

N.Həsənzadə 1962-ci ildə Respublika Televiziya və Radio verilişləri Komitəsində böyük redaktor, sonralar "Uşaq və gənclər ədəbiyyatı nəşriyyatı"nda redaktor, "Azərbaycan gəncləri" qəzetində, "Azərbaycan" jurnalında şöbə müdiri, "Ədəbiyyat və incəsənət" qəzetinin Baş redaktoru (1976-90) vəzifələrində çalışmışdır. SSRİ Yazıçıları Ədəbiyyat Fondu Azərbaycan bölməsinin direktoru olmuşdur. Bütün bu məsul və gərgin iş rejiminə baxmayaraq o, öz əsas peşəsindən – şairliyindən bir bir an da aralanmamış, bu illərdə çox məhsuldar işləyərək yeni-yeni ədəbi nümunələrlə öz oxucusunu sevindirmişdir.

Görkəmli şair ömrümün bu ahıl çağında da dinclik nədir bilmir. Azərbaycan Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının sədri kimi geniş ictimai-siyasi iş aparır, müxtəlif sosial-mədəni tədbirlər təşkilatın və layihə rəhbəri kimi öz güc və ağlını sərf edir. Şairin ən uğurlu işlərindən biri kimi onun rəhbərliyi ilə həyata keçirilən "Qələmlə, silahla" adlı layihəni qeyd etmək olar. H.Əliyevin ədəbiyyata və mədəniyyətə həsr edilmiş fikirlərinin yer aldığı bu layihə əsasında dəyərli bir albom hazırlanmış, burada şairin son dövrlər yaradıcılığının nümunələri olan iki poeması da verilmişdir. "Salam, ay bizim dağlar" və "İstiqlal əsgəri" adlanan Qarabağ təbiəti və Qarabağın azadlığı yolunda döyüşlərə dair şairin poetik

düşüncələri öz əksini tapmışdır.

Dissertasiyanın birinci fəslinin ikinci paraqrafında Nəriman Həsənzadə yaradıcılığının tədqiqi səviyyəsinə diqqət yetirilmişdir.

N.Həsənzadə hələ yaradıcılığının ilk dövrlərindən elmi-ədəbi ictimaiyyətin diqqətini cəlb etmiş, əsərləri hasqqında müntəzəm olaraq Azərbaycan və onun hüdudlarından kənarda məqalələr, kitablar yazılmış, araşdırmalar aparılmışdır. Görkəmli alim və yazıçı M.C.Paşayevdən başlamış akademiklərdən M.Cəfər, Z.Bünyadov, M.İbrahimov, B.Budaqov, İ.Həbibbəyli, B.Nəbiyev, Y.Qarayev, N.Cəfərov xalq şair və yazıçılarından, alimlərdən M.Hüseyn, O.Sarıvəlli, S.Rüstəm, H.Arif, N.Xəzri, X.Rza Ulutürk, M.Araz, B.Vahabzadə, İ.Şıxlı və bir çoxları N.Həsənzadə yaradıcılığına münasibət bildirmiş, onu dövrümüzün ən müqtədir söz sənətkarlarından biri kimi dəyərləndirmişlər. Prof. B.Xəlilov, dos.G.Əmrullahqızı və prof.Ş.Sadıqov N.Həsənzadənin yaradıcılığında estetika məsələlərinə xüsusi monoqrafiya həsr etmişdir.

N.Həsənzadənin yaradıcılığı ilə bağlı təkcə Azərbaycanda deyil, dünya səviyyəsində fikir və mülahizələr irəli sürülmüş, şairin yaradıcılığının müxtəlif aspektləri tədqiq edilib oxuculara çatdırılmışdır. [103, s.11] Bunlardan türk şairi Nazim Hikmət, balkar xalq şairi Kaysın Kuliyev, kalmık xalq şairi David Kuqultinov, alman şairi Karl Otto, rus tənqidçisi Q.Mutin və başqalarının adını çəkmək olar.

Sadaladığımız müəlliflərin sayından göründüyü kimi N.Həsənzadənin yaradıcılığının tədqiqi səviyyəsi çox genişdir və onların söylədiklərini burada təkrar etməli olsaq, ayrıca bir əsər ərsəyə gətirmiş olarıq. Odur ki, bəzi müəlliflərdən kiçik sitatlar ətirməklə fikrimizi tamamlamaq istərdik: *"Bədii yanaşma geniş mənada Nəriman Həsənzadənin tarixlə müasir dövr arasında körpü yaratmaq, müasirlərinə yeni və ibrətamiz söz demək məqsədinin həllinə meydan açır və xalq şairi Nəriman Həsənzadə tarixdən bu günə çatdırılması zəruri və əhəmiyyətli olan sözü ən yüksək bədii səviyyədə və müasirlik işığında ifadə etməyin böyük ustadıdır (İsa Həbibbəyli akademik)"* [59, c.7, s.20] Balkar xalq şairi Kaysın Kuliyev N.Həsənzadə yaradıcılığına belə qiymət verir: *"Mən Nəriman Həsənzadənin sözlərini görəndə məhz ona görə sevindim ki, on-*

*larda ritorikadan, təmtəraqlı, bəzəkli ibanələrdən uzaq, təmiz pak insan səsi hiss etdim”* [59, c.1, s.10]

Birinci fəslin üçüncü paraqrafı “Nəriman Həsənzadənin əsərlərində tərbiyənin ümumi problemləri” adlanır.

Azərbaycanın görkəmli ədibi, Xalq şairi N.Həsənzadənin şəxsi həyatını və yaradıcılığını bütövlükdə milli pedaqogika məktəbi adlandırsaq, bizcə, yanılmarıq. Ustad sənətkarın keçdiyi sənət yolu və əsərlərinə diqqət etdikdə bu fikrin doğruluğu öz təsdiqini tapmış olur. O, elə yazıçılardandır ki, əsərlərində qaldırdığı və həllinə çalışdığı problemlər milli olduğu qədər də bəşəridir, dünən üçün də aktual idi, bu gün üçün də aktualdır. Bunu N.Həsənzadənin nəsr yaradıcılığının zirvəsi sayıla biləcək “Nabat xalanın çörəyi” povesti timsalında aydın şəkildə görmək olur. Dünyanın bir çox dillərinə tərcümə olunmuş bu əsər haqqında vaxtında çox deyilmiş, çox yazılmışdır. Qələmə alınmasından neçə onilliklər keçməsinə baxmayaraq əsər indi də milli dəyərlərimizə, əxlaq və tərbiyə məsələlərinə həsr olunmuş ən qiymətli bədii nümunələr cərgəsində yer almaqdadır. Səmimilik, milli-mənəvi dəyərlərə sonsuz hörmət və qayğı əsərin ən başlıca keyfiyyətlərindən olub müasir oxucunu düşündürməyi və öz arxasınca aparmağı bacarır. Avtobioqrafik səciyyə daşıyan “Nabat xalanın çörəyi” povesti keçən əsrin 40-50-ci illərinin hadisələrini əks etdirsə də, burada bir ana-balanın, bir qəsəbənin adamlarının timsalında o dövrün ən xarakterik cəhətlərindən sayılan yetimlik, maddi kasıblıq, lakin mənəvi-əxlaqi zənginlik lirik bir formada öz bədii inikasını tapmışdır.

Xalqımızın belə bir müdrik deyimi var: “Sevinci bölüşdükcə çoxalar, kədəri bölüşdükcə azalar”. Bu ağır gün-güzəran təkcə Nabat ananın deyil, o dövrün əksər analarının taleyinə yazılmışdı. Birinin əri müharibədə həlak olmuş, birininki şikəst qayıtmış, digərinin özündən başqa həyanı yox idi. Qiyamın zarafatla anasının “şələ bacıları” adlandırdığı 5 qadın zahirən savadsız, avam görünsələr də, əslində müasirlərimizin bir çoxundan müdrik və biliklidirlər. Əsərin qəhrəmanına hər biri ana gözü ilə baxıb doğma anadan fərqlənməyən bu qadınlarda xalqdan gələn, fitri istedad var. Müəllif haqlı olaraq onları “oxuduqca qurtarmayan kitab” ad-

landırır. Bu cür qadınların himayəsində böyüyən, onlardan həyat dərsi və tərbiyəsi alan adam mümkün deyildi ki, ayağını insaf-iman, mərhəmət-ədalət, namus-qeyrət yolundan kənar qoya bilsin. Ağır fiziki əməkdən zahirən kobudlaşmış, kişiləşmiş bu anaların daxili zənginliyi və zərifliyi isə tam heyranedicidir. Müəllif onlardakı abır, həya və ismət hissinin nə qədər güclü olduğunu Qiyamın bir neçə ildən sonra tələbə kimi qayıdıb onlarla görüşdüyü səhnədə çox böyük ustalıqla tərənnüm etmişdir.

Təbii ki, əsərdən doğan, cavabını hələ də gözləyən suallar kifayət qədərdir. Ən çətin sual isə odur ki, əsərdə cərəyan edən hadisələr, görəsən, bugünkü gəncliyin, bu günün adamlarının şüurunda, mentalitetində necə qavranılır, dərk edilir? Biz mənəviyyat və əxlaqca o illərdən nə qədər irəli getmişik, yoxsa gerimi saymışıq?

Bu sualların cavabını vermək o qədər də asan deyil. Pedaqogika elmi prizmasından yanaşdıqda N.Həsənzadənin "Nabat xalanın çörəyi" əsərini bütöv bir tərbiyə ensiklopediyası adlandırmaq olar. Əsərdə insan və insan, insan və cəmiyyət, insan və təbiət, insanın vətəni, milləti, əqidəsi, mənəviyyatı və sairə kimi problemlərə dair çox geniş bilgilər öz əksini tapmışdır.

Povest boyu kitabsevərlik, ümumən maarifçiliklə bağlı da müəllifin fikirləri geniş yer almışdır.

Əsər boyu yazıçının oxucuya təlqin etdiyi əxlaqi keyfiyyətlərə duz-çörəyə sədaqətli olmaq, ona naxələf çıxmamaq, xeyirxah olmaq, minnətsiz yaşamaq və s. də aid etmək olar.

Başqa bir epizoddan isə məlum olur ki, Nabat ana min bir əziyyətlə böyütdüyü yeganə oğlunu gələcəkdə çətin duruma, xərcə salmamaq üçün öz kəfənliyini, ehsanlığını da əvvəlcədən tədarük edibmiş. Ögey qızı Səriyyənin ər evinə köçdüyü gün öz gəlinlik zinətlərini bir an belə qızırqanmadan saxlancından çıxarıb ona bağışlaması və ömürboyu bunu oğluna söyləməməsi də Nabat ananın nə qədər geniş qəlbə və mərhəmət duyğusuna sahib olduğunu bir daha açıqlayır. Özü məhrumiyyət içində boğulsa da, alicənablıq hissi onu bir an belə tərk etmir. Povest çox tərbiyəvi, rəmzi bir sonluqla bitir. Belə ki, sevimli müəllimi ilə küçədə rastlaşan baş obraz onun arxasınca baxaraq fikrə dalır və birdən xəyalən onun yanında öz anasını – Nabat xalanı, sonra isə hərbi xidmətdə

komandiri olmuş mayoru görür. Müəllif bu anı belə ümumiləşdirir: *"Üçü də qəlbində, ruhunda, qanında nə var idisə, mənə verib gedirdilər. Sanki borclarını verib gedirdilər. Qalan mən idim – borclu qalan!"* [59, c.4, s.229]

Müəllif bu üç şəxsin timsalında müqəddəs bir üçlük yaratmışdır; ana bizi vətənə bəxş edən, müəllim vətəni sevməyi və onda yaşamağı, hərbçi isə onu qorumağı öyrədəndir. Bizim isə borcumuz onların bizə verdiklərini qorumaq, yaşatmaq və irsən ötürməkdir. "Bəyanat" və "Şəhid atası Şərif qağaya məktub" şeirləri N.Həsənzadənin ictimai-siyasi lirikasında özünəməxsus yeri olan əsərlərdir. Vətən, torpaq, millət ağrısı ilə yoğrulmuş bu şeirlərin qayəsini vətən uğrunda canından keçmiş şəhidlərimzin ölməzliyinin tərənnümü təşkil edir. "Bəyanat" əsərində həm 20 yanvar və Qarabağ, "Şəhid atası Şərif qağaya məktub"da isə Qarabağ şəhidlərindən bəhs olunsa da, məqsəd, məram birdir; Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi yolunda nə qədər maneələrə rast gəlsə də, bu yoldan çəkilən, sınan, əyilən deyildir. Bu amal uğrunda canından keçən şəhidlərimizə xalq məhəbbəti və sevgisi isə tükənməzdir, əbədidir.

Sovetlər dönəmində millətimizin hər adddımda aşağılanmasını, ermənidən, gürcüdən, latışdan, estondan əksik tutulmasını həzm edə bilməyən N.Həsənzadə şər, böhtan, milli ədavət mənbəyi olan erməni yazarları S.Kaputikyan, Z.Balayan, A.Aqanbeqyan kimilərinin Sovet rəhbərləri tərəfindən əziz tutulub bizim Xudu Məmmədov, Fərman Kərimzadə, Hafiz Baxış kimi alim və ziyalılarımızın ürək tutmasından həlak olmasını millət, xalq yolunda şəhidlik kimi dəyərləndirir, nəsilləri onlardan və tarixdən ibrət götürməyə çağırır.

Adından göründüyü kimi, "Şəhid atası Şərif qağaya məktub" əsəri Azərbaycanın azadlığı yolunda həlak olmuş bir qəhrəmana həsr olunmuşdur. Diqqətəlayiqdir ki, N.Həsənzadənin 90-cı və 2000-ci illər yaradıcılığında vətən, onu tarixi və tarixi şəxsiyyətləri, qəhrəmanlarının tərənnümü, bir sözlə, vətənə və xalqa məhəbbət tərbiyəsi, təşviqi əsas yer tutur.

N.Həsənzadə yaradıcılığında tərbiyə məsələlərini araşdırarkən bir daha əmin olduq ki, şair heç vaxt "mənim dediyim fikir-

dən, söylədiyim hadisədən filan nəticəni çıxarın, dərs alın, tərbiyələnin” demir, real həyat hadisələrini təsvir edərək, öz doğru mövqeyini də ortalığa qoyur, nəticə çıxarmağı isə oxucunun öz öhdəsinə buraxır. Bunun üçün çox vaxt müasir təlimdə olduğu kimi əvvəlcə motivasiya yaradır, oxucunu düşünməyə, tədqiqatçı olmağa vadar edir, sonra da bir müəllim kimi fikrən nəticələri hesablayır (müzakirələr və mübadilələr aparır) və heç vaxt hesabında yanılmır. Nəticə çıxarmağı və qiymətləndirməyi isə oxucunun öz öhdəsinə buraxır. Axı, o, həm də təcrübəli bir müəllimdir, pedaqoqdur, uzun illərdir gənc nəslin təlim-tərbiyəsi ilə məşğuldur.

Şairə görə, Azərbaycan xalqı və dövləti öz ərazi bütövlüyünü tam şəkildə bərpa etməyincə mübarizə davam edəcəkdir. Şair buna bütün varlığı ilə əmindir və oxucusunu da Azərbaycanın öz haqq işində qalib gələcəyinə inandırmağa çalışır. Bütün dünya gücləri bizə qarşı olsa belə bir gün Qarabağ üzərində, Qafqaz üzərində Azərbaycanın qələbə bayrağı dalğalanacaqdır.

Bu bir həqiqətdir ki, əsgər cəbhələrdə silahı ilə qəhrəmanlıq göstərə bilirsə, şairin də silahı onun sözüdür.

Qocaman şair başdan-başa mübarizlik libasına bürünərək oxucunu qeyrətə, zəfərə səsləyir, olub-keçənləri yada salmaqla insanlarımızı unutqanlıq mərəzindən xilas edir, onlara əzmkarlıq və igidlik ruhu aşılayır. Gənc nəslə yalnız adını eşidib üzünü görmədikləri işğal atda qalan bölgələrimizi xatırladaraq yaddaşlarına həkk edir, qisasa çağırır.

Avtobioqrafik səciyyəli “Poylu-beşiyim mənim” poeması N.Həsənzadənin yer, yurd və onun insanları barədə yazdığı ən iri həcmli əsərlərdəndir. Təbii ki, müəllif doğulub boya-başa çatdığı Ağstafanın Poylu qəsəbəsini vətənin bir parçası kimi görüb vəsf etmişdir. Vətənpərvərlik və mənəviyyat tərbiyəsinin poeziyamızda ən gözəl nümunələrindən olan bu əsər onun nəsrlə yazdığı və anasına həsr etdiyi “Nabat xalanın çörəyi” povestini xatırlatsa da, poemada öz əksini tapan hadisələr, şəxsiyyətlər tarixlik və məkan baxımından daha genişdir. Başqa sözlə, şair povestdə deyib çatdıra bilmədiyi bir çox məsələləri burada daha dərin bədii şərhlə ifadə etmişdir.

II Dünya müharibəsində, bizə yad olan “Vətən” və “Ölkə”

savaşında minlərcə itki verməyimizin, məhrumiyyətlərimizin mükafatı olaraq 1948-ci ildə yüz minlərlə soydaşımız öz dədə-baba torpaqlarından deportasiya edildilər:

*Stalinin ağır oldu hökmü nəhayət,*
*Qədim, ulu məskənindən sürüldü millət"* [59, c.2, s.679]

İndi də yeni problem ortaya çıxıb; "urbanizasiya problemi".

Daha heç kim kənddə yaşamaq istəmir, hamı fürsət tapan kimi şəhərə qaçır. Kənd, qəsəbə adamlarının əksəriyyəti tənbəlləşib, əkin-biçin etmək, mal-qara saxlayıb təsərrüfat qurmaq əziyyətinə qatlaşmaq istəmir.

Halallıq tərbiyəsi, zəhmətsevərlik və təvazökarlıq N.Həsənzadənin yaradıcılığını rövnəqləndirən, ona şan-şərəf gətirən ən başlıca məziyyətlərdəndir. "Poylu-beşiyim mənim" poemasında da şair halallığı insanın ən yüksək mənəvi dəyərlərindən biri kimi səciyyələndirib öz şəxsində ömrü boyu haram tikəyə əl uzatmadığını, başqasının süfrəsində gözü olmadığını qürurla dilə gətirir, başqalarına da bu cür yaşamağı tövsiyə edir.

Dissertasiyanın ikinci fəsli "Nəriman Həsənzadə yaradıcılığında gənc nəslin tərbiyəsi problemləri" adlanır. Bu fəsil 5 paraqrafdan ibarətdir. "Nəriman Həsənzadə yaradıcılığında ana dili və ona məhəbbət tərbiyəsi" adlanan birinci paraqrafında Nəriman Həsənzadə yaradıcılığına istinad edilərək qeyd olunur ki, dil sevgisi, dili öyrənmək ana laylasından, oxşamalarından başlanır. Deməli, dil də ana qədər müqəddəsdir, ona hörmətsizlik və biganəlik anaya hörmətsizlikdir.

*"Dil xalqın verdiyi ən böyük əsər,*
*Onun qoynu isti, qanı təmizdi.*
*Adicə vurğular, ya işarələr,*
*Minillik mənəvi sərvətimizdi".*

Yeri gəlmişkən, bir məsələni də qeyd etmək lazımdır ki, o vaxt dilçi alimlərə və şairə bu sevinci, uğuru yaşadan respublikamızın rəhbəri, ulu öndər H.Əliyev idi.

Millətini və vətənini bütün varlığı ilə sevən, N.Həsənzadə dilə qarşı ən kiçik bir laqeydliyi də bağışlaya bilmir, bu sahədə gördüyü hər bir səhv addıma, yanaşmaya qarşı öz etiraz səsini ucaldır. Bəzi işbazların və dəbpərəstlərin Bakı və onun ətraf böl-

gələrində, guya, müasirlik və dünyəvilik naminə öz şəxsi obyektlərinə əcnəbi adlar qoymasını, bu yolla özlərini reklam etməsini bəyənməyən şair bu hala qarşı çıxır, onu xalqa və onun dilinə hörmətsizlik və zərbə kimi qəbuledir.

Bəzi məktəblərdə rus və ingilis bölmələrində oxuyanların get-gedə çoxaldığının atrıq dəb şəklini aldığını ürək ağrısı ilə müşahidə edən şair bunu qəbul edə bilmir, dünən övladlarını rusca oxudanların indi ingilisə meylini anormal sayan şair bu cür yanaşmaları milli heysiyyətsizlik kimi dəyərləndirir:

*"Təzə bir don biçir yenə əlimiz,*
*Bilmirəm, Avropa belə geyirmi?*
*Rusdan ingilisə keçir dilimiz,*
*"Azadlıq" deyənlər kölə deyilmi?"* [59, c.1, s.59]

N.Həsənzadənin dil sevgisi o qədər yüksəkdir ki, o hətta bu dillə əl açıb dilənməyi də bu dilə və onun daşıyıcılarına rəva görmür, bunu özünün və millətin ləyaqətinə sığışdırmır. Bir qadının qəbiristanlıqla ölü sahiblərinin qarşısına qaçaraq onlardan Azərbaycan dilində sədəqə istəməsi şairi həddən artıq ağrıdır. Sahə müvəkkilinin bu hadisəyə istehza və soyuqqanlı bir tərzdə yanaşması isə şairin dərdinin üstünə əlavə bir dərd qoyur. Cəmiyyətdəki biganəlik və etinasızlıq şairi dilə gətirir, dilənçinin doğma dilimizdə səslənən yalvarışları şairi təbdən çıxarır, millət və dil təəssübü yeni bir şeirininyaranmasına səbəb olur:

*"O, dilənir, o yalvarır,*
*Babək fərman verən dildə,*
*Böyük Sabir asta-asta*
*Ağladıb-güldürən dildə.*

Bu cür şeirlər və misralar millət və dil qeyrətini çəkən N.Həsənzadənin yaradıcılığında kifayət qədərdir. Oxucu bu şeirlərlə tanış olduqca şairin böyük dil sevgisinə şərik çıxır, özünü tanıyır, saflaşır və durulur, doğma dilimizə məhəbbəti bir az da artırmış olur. İkinci fəslin "Nəriman Həsənzadə yaradıcılığında ideya-mənəvi tərbiyə şəxsiyyətin formalaşmasına təsir edən vacib amil kimi" adlı ikinci paraqrafı ideya mənəvi tərbiyə məsələlərinə həsr edilmişdir.

Elmi pedaqoji ədəbiyyatda ideya-mənəvi tərbiyənin məzmu-

nuna bunlar aid edilir: ...ideya-mənəvi tərbiyənin məzmununa dövlətin siyasətini başa düşmək, elmi dünyagörüşü və ideya-siyasi əqidəni formalaşdırmaq, vətəndaşlıq şüuru və yetkinliyi, vətənpərvərlik və beynəlmiləlçilik, habelə hüquq tərbiyəsi daxildir.

Nəriman Həsənzadə öz elmi və bədii yaradıcılığında daim milli-fəlsəfi və kulturoloji dəyərlərə diqqət və hörmət bəsləmiş, bu barədə fikirlərini yaratmış olduğu əsərlərdə dönə-dönə şərh etmişdir. Bu cəhətdən onun çoxşaxəli yaradıcılığında dünya mədəniyyəti tarixini ehtiva edən "Kulturologiya" əsəri xüsusi yer tutur. Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən ali məktəblər üçün dərslik kimi təsdiq edilən bu əsər öz mövzu genişliyi, dərin elmi-fəlsəfi ümumiləşdirmələri ilə diqqəti cəlb edir.

Ustad bir pedaqoq və maarifçi kimi N.Həsənzadə "Kulturologiya" əsərində oxuculara çox böyük elmi-pedaqoji və fəlsəfi-kulturoloji dəyərlər aşılayaraq Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə təsiri və bundan irəli gələn vəzifələri də uzaqgörənliklə şərh etmişdir.

Mədəniyyətlərin inkişafında hər bir xalqın üzərinə düşən vəzifələri ümumi bir şəkildə və həm də əlaqəli formada müəyyənləşdirən müəllif bəşəriyyətin əldə etdiyi kulturoloji sərvətlərin qorunub saxlanmasında və ötürülməsində tarixi varisliyin mövcudluğuna və zəruriliyinə xüsusi bir önəm vermişdir.

Məhəmməd Peyğəmbərin yüzlərlə qiymətli kəlamlarından bir neçəsini diqqətə yetirən N.Həsənzadə onun belə bir kəlamı üzərində xüsusi dayanmağı lazım bilir: *"Bəşəriyyət düz yolu tapandan sonra dağılıb məhv olmaz, yalnız münaqişə və mübahisə yolu ilə dağıla bilər"* [59, c.5, s.229]

"Kulturologiya" əsərində müəllif dünya mədəniyyət systemlərini milli-kulturoloji və fəlsəfi mövqedən təhlil edərək insan cəmiyyəti və mədəniyyət anlayışlarının qarşılıqlı əlaqəsini dinlərin insan tərbiyəsində, onun dünyagörüşündə rolunu nəzərə çatdırır. İslam əxlaqına dəyər verən N.Həsənzadə gənclərimizə müdrik peyğəmbərimizin (ə.s) bu fikrini təlqin edir: *"Elmi beşikdən məzaradək öyrənmək lazımdır"* [59, c.5, s.218]

Bədii yaradıcılığında olduğu kimi, N.Həsənzadə elmi-publisistik əsərlərində də öz həyat idealına və estetik görüşlərinə sadiq

qalmış, düzü düz, əyrini əyri göstərmiş, öz ifadəsi ilə desək, heç vaxt tərəzinin gözünü əyməmişdir.

Elmi-publisistik yazıları ilə tanışlıqdan ortaya çıxan nəticə budur ki, N.Həsənzadə əsl milli bir şəxsiyyətdir, vətənini, xalqını bütün varlığı ilə sevən, bütün ömrü boyu Azərbaycan dövlətçiliyinə xidmət edən, mütəfəkkir bir ziyalı, alim və yazıçıdır. N.Həsənzadənin estetik idealına rövnəq verən ən başlıca cəhətlərdən biri onun həyata öz müstəqil, fəlsəfi baxışının olmasıdır. Elə buna görədir ki, söylədiyi fikirlərin əksəriyyəti aforizm təsiri bağışlayır, oxucunu düşündürərək öz arxasınca apara bilir.

Tədqiqatın ikinci fəslinin üçüncü paraqrafı əxlaq tərbiyəsi məsələlərinə həsr edilmişdir. Elmi-pedaqoji ədəbiyyatda əxlaq kateqoriyaları bu şəkildə xarakterizə edilir: *"Əxlaq kateqoriyaları ümumi şəkildə insanlar arasında, insanla cəmiyyət arasında mənəvi əlaqələri göstərir, yaxşılıq, ədalətlilik, borc, şərəf, ləyaqət, vicdan, xoşbəxtlik və s. əxlaq kateqoriyaları kimi müəyyən tələbləri ifadə edir"* [76, s.231]

Son vaxtlar pedaqoji ədəbiyyatda "humanist pedaqogika" adlanan bir termin geniş yer alıb. Özündə insanpərvərlik və insana rəhmdil münasibətlər ifadə edən bu tərbiyə metodu əslində pedaqogika elminin əsas qayəsini ehtiva edir. Azərbaycan xalqının milli mentalitetinin tərkib hissələrindən olan humanizm tərbiyəsi onu digər xalqlardan fərqləndirən ən üstün keyfiyyətlərdəndir. Məsələ burasındadır ki, biz həmişə pisliyə pisliklə deyil, yaxşılıqla cavab vermək, xeyirxahlıq ruhu və adəti ilə tərbiyə olunub ən qatı düşmənə belə yeri gələndə rəhmdil münasibət bəsləyib onu bağışlamağı bacarmışıq. Təbii ki, bu bizim acizliyimizdən deyil, çox genis qəlb sahibi olmağımızdan irəli gələn bir xüsusiyyətdir. N.Həsənzadənin "Vətənsizlik" poemasının başlıca məzmununu da məhz insana, darda olan insana bucür münasibət təşkil edir.

Azərbaycan anası başdan-başa örnəkdir, tərbiyə məktəbidir.

Alicənab, duyğulu, həssas analarımız təkcə alqışları, duaları, sözləri ilə deyil, əməlləri ilə də bir hikmət xəzinəsi, bir insanlıq nümunəsidir. O vaxt hələ uşaq olan şair ilk insanlıq dərsini anasından, onu əhatə edən qəsəbə əhlindən alıb, özü də bu ruhda böyüyüb və tanınmış şair olanda da bu nəcib hisslər onu ömür boyu

tərk etməyib, yaradı-cılığının mayasını təşkil edib:

*“Mən anamın timsalında duydum o vaxt:*
*Yıxılana balta vurmaq, ya qanadı sınmış quşa bir daş atmaq*
*Günah imiş, böyük günah”* [59, c.2, s.372]

“Vətənsiz” poemasının ən ümdə dəyərlərindən biri də oxucuda müharibəyə, qan-qadaya nifrət hissinin tərbiyəsidir. Müharibənin vurduğu yaralar neçə nəslin xoşbəxtliyini əlindən alır, ömürləri yarımçıq qoyur, taleləri bədbəxtliyə doğru sürükləyir. Çox xalqlar üçün müharibələr bitsə də, bizim xalq üçün müharibə dünən də vardı, bu gün də var. Səbəb isə mənfur qonşularımız və onlara dil verən, dəstək olan himayədarlardır. Biz nə qədər humanist, toleyrant olsaq da, əvəzini görə bilmirik, amma neyləmək olar ki, bizim xəmirimiz insanpərvərlik və ədalət cövhəri ilə yoğrulub... Görünür, bir xalq kimi bizim gücümüz humanizmimizdədir. N.Həsənzadənin də bir şair və insan kimi böyüklüyü yəqin ki, bundadır.

N.Həsənzadənin bir insan və şair, ən əsası isə əxlaqi dəyərlərə böyük önəm verən vətəndaş mövqeyinin öz ifadəsini tapdığı əsərlərdən biri də “Qarabağdan gələn var” poemasıdır. Poema Qarabağ adlı böyük dərdimizin və faciəmizin daşıyıcılarından biri olan, Xocavənd rayonunun Tuğ kəndində doğulub müəllim və məktəb direktoru olmuş Məmməd müəllimə və onun ailəsinə ithaf olunsa da, şair bu timsalda Qarabağla bağlı özünün və ümumən xalqımızın ağrı-acılarını, qəzəb və nifrətini, ümid və gözləntilərini lirik bir dillə çözələyərək öz bədii siqləti və qayəsi ilə seçilən bir əsər ortaya qoya bilmişdir.

Bu çətin zamanda bəzi zirək, işbaz və vətən təəssübündən uzaq adamların heç nə olmamış kimi böyük ağrımıza, tökülən şəhid qanlarına biganə qalmaları, vətənimiz Azərbaycanın sərvətini öz dədə malı kimi sümürüb harınlaşmaqları da şairin tənqid obyektindədir. Bəzi yalançı möminlərin, saxta vətənşüvənlərin haram yolla qazandıqları var-dövlət hesabına hər il həcc ziyarətinə gedib “hacı” olmaları, lakin ehtiyacı olan millətdaşlarına heç bir yardım göstərməmələridə şairin qəzəb və qınağına çevrilir.

İnsanların bir çoxunun maddi cəhətdən varlanması, mənəvi cəhətdən kasıblaşması, milli-mental dəyərlərdən uzaqlaşaraq “mə-

nə nə var" fəlsəfəsi ilə yaşaması, yeganə qayğısının get-gedə artan varını-pulunu bir az da artırmaq olması poemada dönə-dönə xatırlanaraq kəskin tənqid edilir.

Müəllif poemada Azərbaycan cəmiyyətinin malik olduğu geniş mənəvi dəyərlər spektrini gözəl bədii bir dillə qələmə almışdır. Oxucu bu əsərdən xeyli ibrətamiz nəticələr çıxararaq saflaşır, durulur, vətənin taleyi, itirilmiş torpaqlarımızın qaytarılması uğrunda döyüşlərə səfərbər olur. Məmməd və Səyyarə müəllimlərin timsalında isə qarşılıqlı məhəbbət, ailə qədri bilmək, vətən və xalq yolunda hər fədakarlığa getmək ruhunda tərbiyə olunur.

Dissertasiyanın ikinci fəslinin dördüncü paraqrafı "Ailə münasibətləri və onun uşaqların tərbiyəsində rolu" adlanır. Sağlam cəmiyyətin təşəkkülü ailədən başlanır. İctimai münasibətlər sferasında ailə münasibətlərinin xüsusi çəkisi çox böyükdür. İnsan cəmiyyətə ailədə hazırlanır və bu hazırlığının səviyyəsindən asılı olaraq cəmiyyətdə layiq olduğu yeri tuta bilir, yəni ailədaxili münasibətlər ictimai münasibətlərdə öz əksini tapır. Ailə tərbiyəsinə alim və Ulu öndər H.Əliyev həmişə öz ailəsi barədə çox qürurla danışır, həyat yoldaşı akademik Zərifə Xanım Əliyeva ilə qurduğu sağlam ailə ilə fəxr edir, nümunə göstərirdi. O, bütün azərbaycanlı ailələrinin də öz ailəsi kimi sağlam olmasını arzulayırdı. Ulu öndər cəmiyyətdə qadının yeri və ona hörmət barədə belə deyirdi: *"Kişilər gərək qadınlara diqqətli yanaşsınlar. İnsan mədəniyyətinin ən mühüm cəhətlərindən biri cəmiyyətdə qadına hörmət etmək və hörmət etməyi, diqqət göstərməyi bacarmaqdır"* Tədqiqatçıların əsərlərində ailə tərbiyəsinə xüsusi önəm verilmiş, bu barədə Ə.Əlizadə, A.Abbasov, X.Fətəliyev, M.Əmirov, E.Mollayeva və bir çoxları qiymətli araşdırma, dərslik və dərs vəsaitləri ortaya qoymuşlar. [50, s.113] Böyük rus pedaqoqu A.S.Makarenko yazırdı: "*Siz oğlunuzu və yaxud qızınızı valideynlik fərəhi xatirinə həyata gətirib tərbiyə etmişsiniz. Sizin ailənizdə, sizin başçılığınız altında gələcək vətəndaş, gələcək xadim və gələcək mübariz yetişir*" [108, c 5, s.67] Ailə tərbiyəsinin formalaşdırılması bir sıra kəsişən xətlər üzrə baş verir. Buraya ata-ananın bir-birinə və övladlarına, övladların bir-birinə və ata-anaya, nənə-babaya, yaxın qohumlara və s. münasibəti daxildir. Bu xətlər arasında birinin

müvaziliyinin pozulması sonda ailə tərbiyəsində müəyyən qırıqlığa, boşluğa səbəb olur, əziyyətini isə tək ailə üzvləri deyil, yekun olaraq bütöv cəmiyyət çəkməli olur. Məsələn, övlad görəndə ki, valideynləri onlara yedizdirdikləri çörəyi halal yolla qazanmır, o da bu ruha köklənir və sonrakı mühitdə həmin qeyri-əxlaqi davranış və yanaşmaları davam etdirməyə çalışır, əliəyrilik və zəhmətsiz gəlirlə yaşamağa can atır.

N.Həsənzadə düzgün və örnək olası bir ailə tərbiyəsi aldığındandır ki, dəyərli, nümunəvi bir ailə başçısı və vətəndaş kimi yetişə bilib və canına-qanına hopmuş ailə sevgisini, tərbiyəsini öz əsərlərində daim tərənnüm etməkdədir. Onun nəsrlə yazdığı "Nabat xalanın çörəyi" povesti ailə tərbiyəsinə, ana-övlad münasibətlərinə həsr edilmiş əsərlərinin zirvəsi sayılsa da, şair bu mövzunu daim diqqətdə saxlamış, qadın-ana sevgisi, ailə münasibətləri ilə bağlı fikirləri lirik şeirlərində də geniş yer almışdır. Şair analı, qadınlı günləri həyatın ən xoşbəxt günləri sayır və bu xoşbəxtliyi qorumağı, onun qədrini bilməyi təlqin edir.

Bu fəslin "Ekoloji və estetik tərbiyə məsələləri" adlı beşinci paraqrafında şairin yaradıcılığında mövcud problemlərlə bağlı fikirlər öz əksini tapmışdır. Təbiəti sevmək və qorumaq tərbiyəsi N.Həsənzadə yaradıcılığının ayrılmaz tərkib hissəsidir. Təbiətdə hər şey bir-birinə bağlıdır; birinin yoxluğu digərinə də təsir edir. Azərbaycan təbiətinin florasına həsr etdiyi şeirlər şairin ağaclara, gül-çiçəyə vurğunluğunun sonsuz olduğunu göstərir. Onun "Badam", "Vələs", "Payız Etüdləri", "Həyat" və s. şeirləri birbaşa ağaclarla bağlı olub, insan həyatında ağacların nə qədər gərəkli olduğunu tərənnüm edir. "İki tamaşaçı" şeirində isə Zaqatalada gördüyü 700 yaşlı çinara, onun əzəmət və qüruruna tamaşa edən şair onu dünyagörmüş bir ağsaqqala bənzədir.

N.Həsənzadə özü kimi oxucusunu da, təbiəti sevməyə, onu qorumağa, təbiətin bizə verdiyi nemətlərə minnətdar olmağa çağırır. Qədim babalarımızdan qalan "əkdilər yedin, gərək sən də əkəsən ki, yesinlər" vəsiyyətini tez-tez xatırladan şair həyatın mənasını "yaşatdım", "böyütdüm" deməkdə görür. Onun "Lerik dağları", "Yardımlının dağlarına qalxıram" kimi şeirlərində doğma təbiətə vurğunluq, gənc nəslin vətəndaşlıq və ekoloji tərbiyəsi para-

lel bir xətlə öz əksini tapmışdır. Gənc nəslin estetik tərbiyəsində N.Həsənzadə yaradıcılığından bəhrələnərək lazımi nəticələrin əldə edilməsi üçün geniş imkanlara malikdir.

"N.Həsənzadənin yaradıcılığında tərbiyə məsələləri" adlı tədqiqat işindən əldə edilən **nəticələri** bu cür ümumiləşdirmək olar:

1. N.Həsənzadə Azərbaycan ədəbiyyatında öz sözü və həyat həqiqətlərinə müstəqil baxışı olan qüdrətli söz sənətkarıdır.

2. İnsan tərbiyəsində bədii ədəbiyyatın rolu əvəzsizdir. Hər bir yazıçı öz əsərlərində özünəməxsus həyat idealını ortaya qoyur və oxucusunu təbliğ etdiyi ideyaların arxasınca aparmağa, bu idealların doğruluğuna və həqiqiliyinə inandırmağa çalışır.

3. N.Həsənzadənin yaradıcılığında tərbiyə problemlərinə ötəri təzahür kimi deyil, onun yaradıcılığına rövnəq və qüvvət verən daimi bir keyfiyyət kimi yanaşmaq lazım gəlir. Bu keyfiyyət ədibin tək-tək əsərlərinə yox, bütün yaraddıcılığına şamil oluna bilən bir üstünlükdür, aparıcı xəttdir.

4. N.Həsənzadə oxucusuna təlqin etmək təsadüfi mənəvi-əxlaqi dəyərləri birbaşa deyil, yaratdığı obrazların və bədii sözün gücü ilə aşılamağa çalışır.

5. N.Həsənzadənin mənzum dramları oxucuda birlik və azərbaycançılıq ideyalarının daha da güclənməsinə təkan verir. Əsasən tarixi mövzularda yazılmış bu əsərlərlə tanışlıq gənc nəslin vətənpərvər, xalqını və dövlətini sevən insan kimi formalaşmasında yüksək təsiredici gücə malikdir.

6. N.Həsənzadənin tərbiyə məsələləri ilə bağlı irəli sürdüyü fikirlərin şərhində onun poemalarının xüsusi yeri vardır. Poemaları həyat həqiqətlərini fərqli cəhətlərdən əks etdirdiyi, mövzu rəngarəngliyinə malik olduğu kimi, həllinə çalışdığı problemlərin müxtəlifliyi baxımından da diqqəti cəlb edir.

7. Şairin "Nizami" və "Poylu-beşiyim mənim" poemalarını məqsəd və qayəsini məhz insanın zəhmətə hörmət, elmə təhsilə xüsusidiqqət, adət və ənələrimizə sadiqlik tərbiyəsi təşkil edir.

8. N.Həsənzadənin yaradıcılıq manerası nə qədər geniş olsa da, müxtəlif ədəbi janrlarda əsərlər yaratsa da, o, əslən şairdir şairlik onunilk və ömürlük tale payıdır.

Ədibin şeir yaradıcılığında irəli sürülən tərbiyə məsələrini

aşağıdakı kimi ümumiləşdirmək olar:

a) Sağlam cəmiyyətdə ailənin rolu kifayət qədər həlledici rolla malikdir, cəmiyyətin təməli ailədən başlanır. Ailə tərbiyəsi görməyəndən vətəndaşlıq, mənəviyyat və əxlaq tərbiyəsi ummaq imkan xaricindədir.

b) Kimin ki, əslində-nəslində vətən və millət sevgisi yoxdur, bizdən deyil, yalançı və saxta vətənpərvər kimi görünmək istəyən bəzi vətəndaşlarımız əslində saxta vətənsevərdilər. Bunlara inanmaq, ardınca getmək gərək deyil, düşünmək və doğru yolu tapmaq lazımdır:

c) bəzilərinə elə gəlir ki, bu gün əldə etdiyimiz dövlət müstəqilliyimiz çox asan başa gəlib. Beləəri unudurlar ki, azadlıq və müstəlik heç kimə pay kimi verilmir. Buna nail olmaq üçün çox böyük məhrumiyyətlərdən keçmək lazım gəlir. Oxucu N.Həsənzadənin şeir yaradıcılığında belə sualların cavabını taparaq tarixi keçmişimizlə bağlı biliklər əldə edir, yaddaş tərbiyəsi əldə edir, gələcək həyatını necə qurmaq məsələsində tərbiyəvi biliklər qazanır;

ç) yaltaqlıq, məddahlıq, doğrunun yox, haqsızın yanında durmaq insani sifət deyil, gərək elə yaşayasan ki, sənə görə doğmaların, səni sevənlər utanmasın. İnsan qürurlu olub şərəflə yaşamalı, zəhməti başının tacı etməlidir;

j) şairə görə abır-həya, ismət təkcə qadınlara məxsus keyfiyyət deyildir, bu bizim ümummili dəyərlərimizdən olub, hər iki cinsə aiddir;

d)öz milli dəyərlərinə hörmət edib, qiymət verməyəndən bəşəridəyərlərə hörmət ummaq olmaz.

İnsan təbiətin bir parçasıdır, təbiətdə olan tarazlığın pozulması cəmiyyət üçün fəlakətlər doğurur. Təbiəti sevmək və qorumaq N.Həsənzadə yaradıcılığında ən vacib istiqamətlərdən olub ekoloji tərbiyə üçün geniş imkanlar açır. “Şəlalə-qaya”, “Badam”, “Vələş”, “Söyüd”, “Həyat” adlı şeirlərində şair ekoloji tərbiyə məsələlərinə xüsusi önəm vermişdir.

İnsanın elmi səviyyəsi yüksəlib dünyəvi bilikləri artdıqca o həyatı daha düzgün dərk edir, təbiət və cəmiyyət haqda obyektiv biliklərə sahib ola bilir. Cəmiyyətin tarixi mədəniyyət tarixi ilə sıx əlaqədardır. Din mədəniyyət tarixinin ən qədim atributların-

dandır. Bütün dinlərdə, əslində, ümumilik, birləşdiricilik ayrıcılıqdan və fərdiyəçilikdən daha çoxdur. Azərbaycan toletrant ölkə və multikultural dəyərlərə sahibdir. N.Həsənzadənin din və mədəniyyətlə bağlı görüşləri öz tərbiyəvi əhəmiyyətinə görə bəşəri səciyyə daşıyır və oxucular ondan çox vacib məziyyətlər əldə edə bilərlər.

9. N.Həsənzadə müqtədir bir şair olmaqla yanaşı, həm də yüksək elm və irfan sahibidir, ustaddır. Bilib dərk etdiklərini və düşüncələrini səxavətlə bölüşən müəllimdir, alimdir. Bu baxımdan onun müxtəlif illərdə qələmə aldığı elmi-publisistik yazılardan çox şeylər əldə etmək olar. Görkəmli ədibin məsləhət və tövsiyələrlə zəngin olan bu tip yaradıcılığı elmi-publisist janr üçün örnək kimi qiymətləndirə bilər. Bu yazılardan gənc oxucu xeyirxahlıq və humanizm keyfiyyətləri əldə etməklə yanaşı, həm də obyektivlik və qərəzsizlik tərbiyəsi alır, ədalətli və doğrucul olmağa köklənir.

**Dissertasiya mövzusu ilə əlaqədar aşağıdakı tezis və məqalələr çap olunmuşdur:**

1. Ü.Bəşirli. Nəriman Həsənzadənin "Xarı bülbül" əsərində vətən sevgisi və vətəndaşlıq tərbiyəsi. Bakı: Filologiya məsələləri, 2017, s.390-395.

2. Ü.Bəşirli. Nəriman Həsənzadənin "Nabat xalanın çörəyi" əsərində tərbiyə məsələləri. Bakı: Pedaqoji Universitetin xəbərləri, 2018, s.232-238.

3. Ü.Bəşirli. Nəriman Həsənzadənin "Kulturologiya əsərində tolerantlıq tərbiyəsi. Bakı: Doktorantların və gənc tədqiqatçıların XXll Respublika elmi konfransı, 2018, s. 289-293.

4. Ü.Bəşirli. Nəriman Həsənzadənin "Kimin sualı var" poemasında milli şüur və mənəviyyat tərbiyəsi. Bakı: Gənc tədqiqatçıların II beynəlxalq elmi konfransı, 2018, s.1497-1500.

5. Ü.Bəşirli. Nəriman Həsənzadənin "Qadın" poemasında ailə tərbiyəsi. Bakı: Dil və ədəbiyyat Beynəlxalq elmi-nəzəri jurnal, 2019, s.223-225.

6. Ü.Bəşirli. N.Həsənzadənin "Nuru Paşa" poemasında qədirşunaslıq tərbiyəsi. Samsun, Türkiyə: 2 Uluslararası 1 mayıs sosyal politikalar və bilimsəl araştırmalar kongresi, 2021, s. 56-61

7. Ü.Bəşirli. İmadəddin Nəsimi yaradıcılığında insan tərbiyəsi. Dil və ədəbiyyat Beynəlxalq elmi-nəzəri jurnal, 2022, s. 295-299

8. Ü.Bəşirli. Nəriman Həsənzadə yaradıcılığında doğma dilə sevgi tərbiyəsi. Dil və ədəbiyyat Beynəlxalq elmi-nəzəri jurnal, 2022, s.291-294

9. У.Баширли. Общие проблемы воспитания в творчестве Наримана Гасанзаде.Modern humanities success. 2024, № 5, ст.278-282

Dissertasiyanın müdafiəsi 29 oktyabr 2024-cü il tarixdə saat 12.00-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1000, Bakı, Ü.Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 sentyabr 2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.09.2024
Kağızın formatı: $60 \times 84^{1/16}$
Həcm: 45889
Tiraj: 100